İyul 2017

# *PwC Azerbaijan Times*

## 22 saylı Buraxılış



### *Buraxılışın əsas xəbərləri:*

- **Vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarına dair fərmanlar**
- **İcbari sığorta haqqında Qanuna dəyişiklik**
- **Əmanətlərin sığortalanması haqqında Qanuna dəyişiklik**
- **Mərkəzi Bank haqqında Qanuna dəyişikliklər**

Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi üzrə məsləhət xidmətləri, İdarəedici Direktor

Arif.guliyev@az.pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@az.pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer
Aysel Süleymanova
aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarına dair fərmanlar*

2017-ci ildə topdansatış, pərakəndə ticarət, istehsal, və ictimai iaşə fəaliyyəti sahələrində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarına dair Azərbaycan Respublikasının prezidentinin fərmanları qəbul edilmişdir:

- *Pərakəndə ticarət fəaliyyəti sahəsində* - 19 Aprel 2017 tarixindən;
- *İctimai iaşə fəaliyyəti sahəsində* - 19 Aprel 2017 tarixindən;
- *Topdansatış ticarət fəaliyyəti sahəsində* - 16 İyun 2017 tarixindən;
- *İstehsal fəaliyyəti sahəsində* - 16 İyun 2017 tarixindən.

Bu Qaydaların məqsədi yuxarıda göstərilən sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinin gəlirlərinin və xərclərinin müəyyən edilməsi ilə bağlı malların sənədləşdirilməsini, habelə bu sahədə şəffaflığın, uçot və hesabatlılığın artırılmasını təmin etməkdən ibarətdir.

Vergi Məcəlləsinin 58.8.2-ci maddəsinə əsasən, vergi ödəyiciləri vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunu bu məcəllənin 130.1-1 maddəsinə uyğun olaraq aparmağa borcludurlar. Bu Qaydalar (130.1-1 maddəsinə əsasən) malların hərəkəti üzrə aşağıdakı sənədlərin hazırlanmasını və təqdim olunmasını müəyyən edir:

- Qaimə-faktura və ya elektron qaimə faktura;
- Elektron vergi hesab-faktura (əgər satıcı ƏDV ödəyicisidirsə);
- Malların təhvil-qəbul aktı;
- Malların alış aktı (mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda);
- Təhtəlhesab şəxsə verilmiş vəkalətnamə (etibarnamə) (təhtəlhesab şəxs malları şirkət adından aldıqda);
- Mallar idxal olduqda müqavilə, hesab-faktura, gömrük bəyannaməsi, əmtəə - nəqliyyat qaiməsi, gömrük ödənişlərinin ödənilməsini və ya gömrük borcuna görə təminatın verilməsini təsdiq edən sənədlər;
- Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası;
- Zay məhsulların aktı və sair sənədlər (yuxarıda qeyd olunan əməliyyat və sahə üzrə analoji sənədlər) və sairə sənədlər.

# PwC Azerbaijan Times

## 22 saylı Buraxılış


Qeyd etmək lazımdır ki, Qaydalarda sadalanan sənədlər (bəziləri yuxarıda qeyd edilmişdir) ciddi hesabat blanklarıdır. Onların forması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilir.

Nəzərdə tutulan sənədlərdən ən azı biri olmadıqda alıcılara alınmış malların ümumi dəyərindən aşağıdakı maliyyə sanksiyaları tətbiq edilir:

- *10%* - təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə;
- *20%* - ikinci dəfə;
- *40%* - üç və daha çox dəfə.

Həmçinin nəzərinizə çatdırmaq istərdik ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları (MMUS) əsasında yeni Mühasibat uçotu qaydaları təqdim olunmuş və 9 Fevral 2017 tarixdən qüvvəyə minmişdir. Qayda 7 Fevral 2005 tarixində qüvvəyə minmiş "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən hazırlanmışdır.

Qayda mühasibat uçotu üzrə aşağıdakı bəndləri əhatə edir:

- Mühasibat uçotunun əsas anlayışı;
- Maliyyə hesabatlarının komponentləri/əsas maliyyə hesabatları;
- MHBS-ın və KTMMUS-un əsas anlayışları/konsepsiyaları;
- Maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri;
- Maliyyə hesabatlarının elementlərinin qiymətləndirilməsi;
- İlkin mühasibat sənədlərinin və reyestirlərinin hazırlanması;
- Mühasibat uçotu xidmətinin təşkili;
- MHBS və KTMMUS üzrə hesablar planının əsas konsepsiyasıları;
- MHBS və KTMMUS üzrə ikili müxabirələşmə qaydaları.

### *İcbari sığorta haqqında Qanuna dəyişiklik*

Dəyişikliklərə əsasən, icbari sığorta ödənişləri yalnız nağdsız formada həyata keçiriləcək.

### *Əmanətlərin sığortalanması haqqında Qanuna dəyişiklik*

Dəyişikliklə Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasının tərkibinə Maliyyə Bazarlarına Nəzarət Palatasının iki nümayəndəsi, Mərkəzi Bankın bir nümayəndəsi, müvafiq icra hakimiyyəti orqanlarının üç nümayəndəsi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliklərinin hər birindən bir nümayəndə) və iştirakçı bankların iki nümayəndəsinin daxil olunması müəyyən edilmişdir.

### *Mərkəzi Bank haqqında Qanuna dəyişikliklər*

Dəyişikliklərə əsasən, Mərkəzi Bankın Direktorlar Şurası aşağıda sadalanan hərəkətlərin həyata keçirilməsində Azərbaycan Respublikası Prezidentinin razılığını almalı olacaqlar:

- Mərkəzi Bankın büdcəsinin təsdiqi və ona dəyişikliklərin edilməsi;
- Beynəlxalq qızıl və valyuta ehtiyatlarının qorunmasında, idarə olunmasında qaydaların və strategiyanın müəyyənləşdirilməsi;
- Mərkəzi Bankın idarəetmə prosedurlarının və təşkilati strukturunun müəyyənləşdirilməsi;
- Mərkəzi Bankda işçilərin mükafatlandırılmasının formalaşdırılması.